**DIM**

## Hədəflər

**Hədəf 5.1:** Dünyanın hər yerinddə bütün qadınlara və qızlara qarşı ayrı-seçkiliyin bütün formalarına son qoymaq

**Hədəf 5.2:** Dövlət və özəl sahələrdə bütün qadınlara və qızlara qarşı bütün formalarda zorakılığı, o cümlədən insan alveri, cinsi və digər növlərdə istismarı aradan qaldırmaq

**Hədəf 5.3:** Uşaq nikahı, erkən və məcburi nikah və qadın cinsi orqanının zədələnməsi (sünnəti) kimi bütün zərərli təcrübələri aradan qaldırmaq

**Hədəf 5.4:** Dövlət xidmətlərinin təmin edilməsi, infrastruktur və sosial müdafiə ilə bağlı siyasətlər vasitəsilə, eləcə də milli kontekstə uyğun olaraq, ev təsərrüfatında və ailədə öhdəliklərin ortaqlığının təşviqi vasitəsilə ödənişsiz qayğı və məişət işini qiymətləndirmək və önəmini təsdiq etmək

**Hədəf 5.5:** Siyasi, iqtisadi və ictimai həyatda qərarların qəbulu prosesinin bütün səviyyələrində qadınların tam və səmərəli iştirakını və bərabər rəhbərlik imkanlarını təmin etmək

**Hədəf 5.6:** Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransın Fəaliyyət Proqramı, Pekin Fəaliyyət Platforması və fəaliyyətlərin icrasının nəzərdən keçirilməsi ilə bağlı digər konfransların yekun sənədlərində razılaşdırıldığı kimi, hamı üçün cinsi və reproduktiv sağlamlıq xidmətlərinə çıxışı və reproduktiv hüquqları təmin etmək

**Hədəf 5.A:** Milli qanunvericiliyə uyğun olaraq qadınlara iqtisadi resurslara bərabər çıxış hüquqlarına, habelə əsas xidmətlərə, torpaq və əmlak formaları üzərində mülkiyyət və nəzarətə, maliyyə xidmətləri, miras və təbii ehtiyatlara çıxışlarını təmin etmək

**Hədəf 5.B:** Qadınların səlahiyyətləndirilməsini təşviq etmək üçün, köməkçi texnologiyalardan, xüsusilə də informasiya və kommunikasiya texnologiyalarından istifadəni genişləndirmək

**Hədəf 5.C:** Gender bərabərliyinin təşviq olunması və bütün qadınların və qızların səlahiyyətlərinin bütün səviyyələrdə artırılması üzrə əsaslı siyasətlər və effektiv hüquqi normalar qəbul etmək və onları möhkəmləndirmək